

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 208 (23.370)

5 noyabr 2019-cu il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizovu qəbul edib.

Bakı şəhərinin inkişafının daim diqqət mərkəzində olduğunu bildirən Prezident İlham Əliyev deyib ki, mən şəhərdə gedən abadlıq-quruculuq proseslərinə şəxsən nəzarət edirəm, bir çox layihələrin təşəbbüskarı olmuşam. Bu gün Bakı dünyanın ən gözəl şəhəri kimi inkişaf edir. Bakıya gələn qonaqlar, o cümlədən mənim həmkarlarım həmişə paytaxtda gedən quruculuq-abadlıq işləri haqqında öz təəssüratlarını bölüşürlər və qeyd edirlər ki, Bakı, doğrudan da, dünyanın ən gözəl şəhərlərindən biridir. Şəhərin ekoloji vəziyyəti yaxşılaşır, bir çox önəmli layihələr icra edilib. Əvvəlki illərdə şəhərin havasını çirkləndirən mənbələr aradan götürülüb. Ağacların əkilməsi şəhərin ekoloji vəziyyətini böyük dərəcədə yaxşılaşdırır. Milyonlarla ağac əkilib. Bu gün Bakı yaşıl parklar, bağlar şəhəridir. Parkların sayına görə, hesab edirəm ki, Bakı dünya miqyasında ən qabaqcıl yerlərdədir.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov bildirib ki, son vaxtlar qonaqlar və Bakı sakinləri görülən bu işləri, həqiqətən, yüksək qiymətləndirirlər. Birmənalı deyirlər ki, son on il ərzində Sizin səylərinizin nəticəsində Bakı keyfiyyətcə yeni bir səviyyəyə qalxıb. Bu, əhali və xarici qonaqlar tərəfindən qiymətləndirilir.



## Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidmətinin yaradılması haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 6-cı bəndini rəhbər tutaraq muxtar respublikada qaz təsərrüfatı sahəsində idarəetmənin təkmilləşdirilməsi məqsədilə **qərara alıram:**

1. “Naxçıvanqaz” İstehsalat Birliyinin əsasında Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidməti yaradılsın.

2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

2.1. Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidmətinin əsasnaməsinin layihəsini, strukturu və işçilərinin say həddi barədə təkliflərini hazırlayıb Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə təqdim etsin;

2.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 4 noyabr 2019-cu il*

## “Naxçıvanpoçt” publik hüquqi şəxsin yaradılması haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin yanında “Naxçıvanpoçt” Məhdud Məsuliyyətli Cəmiyyətinin əsasında “Naxçıvanpoçt” publik hüquqi şəxsi yaradılsın.

2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

2.1. bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan publik hüquqi şəxsin nizamnaməsini, işçilərinin say həddini və strukturunu təsdiq etsin;

2.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 4 noyabr 2019-cu il*

## Naxçıvanda “Ailə təsərrüfatı məhsulları” festivalı keçirilib









Ailə təsərrüfatları daxili bazarın keyfiyyətli yerli məhsullarla təminatı ilə yanaşı, özünüməşğulluğun təmin olunmasına və iqtisadi inkişafa da mühüm töhfə verir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 22 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı Tədbirlər Planı”nın icrası bu baxımdan mühüm əhəmiyyətə malik olmuş, ailə təsərrüfatlarının biznes planları tərtib olunmuş, onlara güzəştli şərtlərlə kreditlər və müxtəlif təyinatlı kənd təsərrüfatı texnikaları verilmişdir. 2019-cu ilin muxtar respublikada “Ailə təsərrüfatları ili” elan olunması isə bu sahəyə marağı daha da artırmışdır.

Görülən işlərin davamı olaraq noyabrın 2-də “Naxçıvanqala” Tarix Memarlıq Muzey Kompleksində növbəti “Ailə təsərrüfatı məhsulları” festivalı keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov festivalda

Ardı 2-ci səhifədə



iştirak etmişdir.

Festivalın açılışından sonra Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin şöbə müdiri Xaliq Abbasov çıxış edərək muxtar respublikada ailə təsərrüfatlarının inkişafı üçün görülən işlərdən danışmış, göstərilən diqqət və qayğıya görə Naxçıvan



Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirmişdir.

Məlumat verilmişdir ki, festivala Şərur, Babək, Ordubad, Culfa, Kəngərli, Şahbuz və Sədərək rayonlarından, eləcə də Naxçıvan şəhərindən, ümumilikdə, 408 ailə təsərrüfatı tərəfindən 556 növdə qablaşdırılmış məhsul çıxarılmışdır. Naxçıvan qovurması, xaması,



qaymağı, müxtəlif növ mürəbbə və şirniyyatları, pendiri, qatığı, alanası, miyanpuru, sucuğu, cəvizi, badamı, qovutu, müxtəlif çeşidli meyvə şirələri, sirkələri, şərabları və araqları, ət və balıq məhsulları, eləcə də turşular, kompotlar, milli mətbəximizə aid çörək çeşidləri və digər məhsullar festival iştirakçılarına təqdim edilirdi.

Muxtar respublikanın ərazisi yabanı tərəvəz və dərman bitkiləri ilə zəngindir. Tarixən həmin sərvətlərdən məişətdə və xalq təbabətində geniş istifadə olunmuşdur. Bu gün də kəndlərdə yabanı tərəvəz və dərman bitkilərinin istehsalı sahəsində ixtisaslaşmış ailə təsərrüfatları vardır. Festivalda bu sahə ilə məşğul olan ailə təsərrüfatlarının dərman bitkilərindən hazırladıqları məhsullar da yer alırdı.

Ali Məclisin Sədri festivalda Gənclər Fondunun hazırladığı “Ailəmdən alıcıya” stendinə baxmışdır. Gənclər Fondunun icraçı





direktoru Cəbi Quliyev məlumat vermişdir ki, gənclər öz ideyaları əsasında ailə təsərrüfatlarında hazırlanmış məhsulların qablaşdırılmasına və təqdimatına köməklik göstərir, məhsulların satışı həyata keçirilir. Fondun “Mənim ikinci peşəm” layihəsi çərçivəsində isə gənclərin hazırladıqları əl işlərindən ibarət sərgi-satış təşkil olunmuş və alıcı istəyinə uyğun olaraq məhsullar hədiyyəlik paketlənmişdir. Gənclərin hazırladıqları “Kənddən al” mobil tətbiqetməsinin məqsədi isə muxtar respublikada fəaliyyət



göstərən aktiv ailə təsərrüfatçılarının fəaliyyətinə dəstək vermək, məhsulların daha rahat üsulla alıcıya çatdırılması və satıcı-alıcı münasibətlərinin operativləşdirilməsidir. Tətbiqetmə 3 əsas bölmədən ibarətdir. Birinci bölmədə muxtar respublikada fəaliyyət gös-



tərən 73 aktiv ailə təsərrüfatçısının məhsulları, ikinci bölmədə “Özünüməşğulluq” proqramı çərçivəsində ailələrin hazırladıqları məhsullar, üçüncü bölmədə isə istedadlı gənc və qadınların əl işlərindən ibarət məhsullar yerləşdirilmişdir.

Zəngin təbiəti, təmiz havası və suyu, ekoloji saf məhsulları Naxçıvanda meyvəqurutma sahəsində ailə təsərrüfatlarının formalaşmasına əlverişli şərait yaradır. Yerli meyvələrin qurudulması, onlardan müxtəlif mürəbbə və şirələrin hazırlanması ənənəsi bu gün də yaşadılır. Festivalda ailə təsərrüfatları tərəfindən qablaşdırılmış alça, göycə, ərik, tut və digər meyvə quruları, eləcə də meyvə şirələri də keyfiyyəti ilə alıcıları cəlb edirdi.

Naxçıvanda heyvandarlıq və maldarlığın inkişafı ət və süd məhsulları istehsalının geniş yayılmasına səbəb olmuşdur. Malqaranın cins tərkibinin yaxşılaşdırılması ailə təsərrüfatlarında istehsal olunan bu məhsulların həcmini və keyfiyyətini artırmışdır. Festivalda ailə təsərrüfatlarında istehsal edilən müxtəlif ət və ət məhsulları, qaymaq, xama, qatıq, şor, qurut və digər ənənəvi süd məhsulları keyfiyyəti ilə seçilirdi.

Dövlət proqramlarının qəbul olunması muxtar respublikada meyvəçiliyin və üzümçülüyün inkişafına geniş imkanlar açmışdır. Bu sahə üzrə ixtisaslaşan ailə təsərrüfatları artıq meyvə ilə yanaşı, tut, alma, armud, göycə, alça, şaftalı araqları, müxtəlif növ şərablar, sirkələr və doşablar da istehsal edirlər. Festivalda bu məhsullara böyük tələbat var idi.

Bu gün muxtar respublikada istehsal olunan keyfiyyətli məhsullar, eləcə də Naxçıvan mətbəxinin nümunələri ölkəmizdə və dünyada brend məhsul kimi qəbul olunur. Xüsusilə ailə təsərrüfatlarında fasillərə uyğun mətbəx nümunələrimizin hazırlanaraq qablaşdırılması və satışa çıxarılması böyük maraq doğurur. Festival iştirakçılarına kiçikhəcmli taralarda qablaşdırılmış “Naxçıvan qovurması” təqdim edilmişdir.

Naxçıvan şəhər sakini Zakirə İsmayılova minnətdarlıq edərək demişdir: “Festivallar Naxçıvan şəhər sakinlərinin böyük razılığı ilə qarşılanır. Muxtar respublikamızda istehsal olunan təbii məhsulları rahat şəkildə ala bilirik. Şəhərimiz böyüyür, inkişaf edir, hər gün daha da abadlaşır. Mənzillərimizdə daimi elektrik, qaz, su və istilik vardır. Görülən işlər, yaradılan şərait insanlar üçündür. Dövlətimizlə fəxr edirik”.

Festivalda iştirak edən Azərbaycan Dövlət Televiziyasının əməkdaşı Günay Muradlı

*Ardı 3-cü səhifədə*

demişdir: "Naxçıvan kimi strateji yerdə belə əmin-amanlığa, firavanlığa və inkişafa nail olmaq böyük zəhmət tələb edir. Adət-ənənələrə sadiqlik, dəyərlərimizin yaşadılması, festivalların keçirilməsi və ailə təsərrüfatlarına qayğı nümunə gücündədir. Mən media nümayəndəsi olaraq bütün bunlardan qürur duyuram. Müasir və daim inkişaf edən Naxçıvanın tanıdılması və təbliğində səylərimi əsirgəməyəcəyəm".

Ali Məclisin Sədri ailə təsərrüfatlarının sahibləri ilə söhbət etmiş, məhsullardan almışdır.

Ailə təsərrüfatı sahiblərindən Şəfəq Əliyeva, "Əmək" ordenli Faiq Babayev, həmçinin Müqabil Zamanov, Bəhruz İsmayılov, Çiçək Bayramova, Xəlil Fərəcov, Leyla Qasımova, Qəzənfər Qurbanov və Tofiq Abutalıbov göstərilən qayğı nəticəsində ailə təsərrüfatlarının xeyli genişləndiyini





bildirmiş, yaradılan şəraitə görə minnətdarlıq etmişlər.

Şahbuz rayonunun Ayrınc kəndindən olan ailə təsərrüfatı sahibi, "Tərəqqi" medallı Sürəyya Quliyeva demişdir: "Geniş təsərrüfatım vardır. Taxılçılıqla məşğulam. Bununla yanaşı, bostan-tərəvəz məhsulları da əkirəm. Meyvə və üzüm bağlarımız var. Göstərilən qayğının nəticəsidir ki, təsərrüfatımız bütün kənd təsərrüfatı texnikaları ilə təmin olunub. Ötən il Ali Məclis Sədrinin qayğısı ilə kombayn almışıq. Öz təsərrüfatımla yanaşı, digər təsərrüfatlarda da biçin aparırıq. Ailəmizin qazancı və dolanışığı təmin olunub. Bütün bunlara görə minnətdarlıq edirik. Söz veririk ki, daha çox çalışacaq, ölkəmizin inkişafına töhfə verəcəyik".

Festivalda xalq sənətkarlarının, istedadlı qadınların və məhkumların da əl işlərinin sərgi-satışı təşkil olunmuşdur.

Dekorativ-tətbiqi sənətlə məşğul olan Xuraman Səfərova və ağac üzərində oyma ustası Afət Əhmədova onlara yaradılan şəraitə görə minnətdarlıq etmiş, xatirə şəkilləri çəkdirmişlər.

Festivalda "Araz" Elm-İstehsalat Birliyinin yardımçı təsərrüfatlarında yetişdirilən məhsullar da nümayiş olunmuş, əkinçiliklə məşğul olan ailə təsərrüfatı sahibləri ilə söhbətlər aparılmışdır.

Naxçıvanda festivalların təşkili həm də turistlərin böyük marağına səbəb olur. Xaricdən və ölkəmizin digər bölgələrindən gələn turistlər festivala böyük maraq göstərmişlər.

Ali Məclisin Sədri ailə təsərrüfatlarının inkişafının mühüm əhəmiyyətə malik olduğunu bildirmiş, göstərilən qayğı nəticəsində ilbəil istehsal olunan məhsulların çeşidinin artdığını qeyd etmiş, bundan sonra da müvafiq dövlət qurumları tərəfindən ailə təsərrüfatlarına dəstək göstərilməsi barədə tapşırıqlar vermişdir.

Festival noyabrın 3-də də davam etmiş, iştirakçılar arasında "Aktiv ailə təsərrüfatı" nominasiyası üzrə müsabiqə keçirilmişdir.

Festivalda Naxçıvan Dövlət Filarmoniyasının kollektivi konsert proqramı ilə çıxış etmiş, iaşə xidməti təşkil olunmuşdur.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**




## Naxçıvan media nümayəndələrinin gözü ilə

# Azərbaycanın gözü, Nizami Gəncəvi yaradıcılığındakı utopik cəmiyyətin real və müasir modeli – NAXÇIVAN

***Bu gün qədim oğuz-türk yurdu, bəşəriyyətin beşiyi Naxçıvan hamının gəlib görmək istədiyi məkanlar sırasında ilk yerlərdə dayanır. Təmiz havası, qədim, tarixi abidələri, istirahət yerləri, digər turizm ehtiyatları, milli qonaqpərvərlik nümunəsi olması Naxçıvana gəlmək üçün əsas səbəblərdir. Bu dəfə də qədim diyarımız müxtəlif media nümayəndələrinə ev sahibliyi etdi. Qonaqlarla Naxçıvanın mübarizlik, qəhrəmanlıq, yenilməzlik simvolu olan Əlincəqalada görüşüb həmsöhbət olduq.***

***Cabbar Şıktaş – "Yeşil İğdır" qəzetinin baş redaktoru, "15 Temmuz" qəzetinin təsisçisi:*** – İlk dəfə Naxçıvana 1991-ci ildə gəlmişəm. Həmin illərdə "Yeni İğdır" qəzetinin müxbiri, "Milliyyət" qəzetinin İqdır və Naxçıvan üzrə bölgə müxbiri işləyirdim. 1990-1993-cü illərdə Naxçıvanın strateji nöqtədə yerləşən Sədərək kəndi düşmən hücumuna məruz qalmışdı. 1992-ci ildə ümummilli lider Heydər Əliyevin göstərişi ilə mən də bu döyüşlərin şahidi oldum, savaşın hər mərhələsini izlədim, çoxlu şəhidlər verdik. Burada iştirak edən qəhrəmanların simasında vətənpərvərlik hisslərinin, Vətənə bağlılığın əsl nümunəsini gördüm. Həmin dövrdə ulu öndərin Sədərəyə gəlməsi, sakinlərin yanında olması, təkcə Sədərəyi deyil, bütün Naxçıvanı erməni işğalından qorudu... Bunları deməkdə əsas məqsədim odur ki, mən Naxçıvanın dünənini yaxşı bilirəm. Bu gün bu diyar sülhün, təhlükəsizliyin əsas beşiyidir. Çox modern bir şəhər var qarşımızda. 2008-ci ildə qələmə aldığım bir yazıda da bəhs etmişdim Naxçıvandan. İndi isə burada, sanki Dubayın alternativini görürük. Naxçıvana səfər etdikdə Ali Məclisin Sədri cənab Vasif Talıbova olan hörmətim və sevgim hər dəfə daha da artır. Ötən illər ərzində hörmətli Sədrin əzmi, fədakarlığı və vətənpərvərliyi sayəsində Naxçıvan bu gün Avropa şəhərləri ilə müqayisə edilir.



Gəzintimiz ərəfəsində muxtar respublikanın ucqar kəndlərinə də getdik. Bu yerlərin yolları da asfaltlanıb. Kəndlərə göstərilən diqqət inanılmazdır. Məktəblər bütün kəndlərin ən gözəl binalarıdır. Gələcəyimizin qarantı olan uşaqlarımızın yaxşı, savadlı yetişməsi üçün təhsilə böyük əhəmiyyət verilir.

Digər tərəfdən, Naxçıvan son dərəcə mükəmməl təbiətə və görünüşə sahibdir. Bunun bir səbəbi bu diyarın təbiətinin qorunması, digər bir səbəbi isə çox səliqəli və təmiz saxlanılmasıdır. Bu mədəniyyət burada yaşayan insanların sayəsində kəndlərdə də qorunub saxlanılıb. Elə Naxçıvanı gözəl edən də birlik və bərabərlikdir. Dünya bu məsələdə sizdən nümunə götürməlidir.

Onu da deyim ki, Naxçıvanda tarixi yerlər çoxdur. Bir dəfə gəzməklə bütün bunları görmək mümkün deyil. Biz bir gün əvvəl Əshabi-Kəhf ziyarətgahında da olmuşuq. Bura ilk dəfə 1990-cı illərdə gəlmişdim. Bu gün fərqli bir mənzərə ilə qarşılaşdım, təəccübləndim. Əvvəlki görünüşdən əsər-əlamət yoxdur. Əminəm ki, buranı ziyarət edən hər bir turist çox gözəl təəssüratlarla qayıdacaq. Naxçıvan haqqında günlərlə danışsaq, sözlərimiz, fikirlərimiz bitib-tükənməz.



Türk dünyasının tanınmış şairi Hüseyn Cavidin məqbərəsinə də getdik. Bu türbənin açılışında mən də iştirak etmişəm. Vaxtilə ümummilli lider Heydər Əliyev o zaman üçün çox böyük bir iş gördü. İndi də Ali Məclisin Sədri cənab Vasif Talıbov onun ənənələrini layiqincə davam etdirir. Bu onu göstərir ki, tarixi yaşadanları tarix də həmişə yaşadır və yaşadacaq.

Onu da qeyd edim ki, mən Türkiyə Cümhuriyyətinin yaradılmasının 96-cı ildönümü münasibətilə keçirilən rəsmi qəbulda iştirak etdim. İqdırı yaxından tanıyan və qayğı göstərən Ali Məclisin Sədri mərasimdən sonra fəaliyyətimizlə yaxından maraqlandı. Bizə göstərilən bu diqqətə görə minnətdarlığımı bildirirəm.

***Aytən Alkaşı – "Siyasal Birikim" qəzetinin ictimaiyyətlə əlaqələr və reklam meneceri, "Balkan Birikim" qəzetinin reklam müdiri:*** – Naxçıvana ilk dəfədir, gəlirəm. Çox gözəl və müasir şəhərdir. Hər şeydən əvvəl, təmizdir. Şəhərdəki və gəzdiyimiz yerlərdəki səliqəsahman məni o qədər maraqlandırdı ki, özözümə düşündüm: "Bu yerlərin belə təmiz saxlanılmasının sirri nədir?" Yerli sakinlərlə



tanışlıqdan sonra aydın oldu ki, bunun səbəbi çox sadə imiş. Hər kəs yaşadığı mənzilin ətrafının təmizliyini diqqətdə saxlayır. Heç kim yerə zibil atmır. Bir sözlə, insanlar qaydaqanunlara riayət edir, öz şəhər və kəndlərini sevirlər.

İnsanların rahatlığı, mehribanlığı sayəsində özümü doğma evimdəki kimi hiss etdim. Şəhərdə, demək olar ki, sıxlıq yoxdur. Naxçıvanın mətbəxi də zəngindir. Bir çox yeməklər bizim yeməklərə yaxındır, lakin çox ləzzətlidir.

Səyahətim boyunca bir çox yerləri gəzdim. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adını daşıyan muzeydə olduq. Bu muzey görkəmli lideri dünya şöhrətli bir siyasi xadim kimi də öyrənməyə imkan verir. Tarixi ənənələri qorumaq vacibdir. Naxçıvanda bu ənənə yaşadılır. Möminə xatın türbəsində olduq. İlk diplomat qadınlardan birinin şərəfinə ucaldılan bu abidə, qadına verilən dəyər diqqətimi cəlb etdi. Abidə üzərindəki ornamentlər, şəbəkə sənətinin izləri Türkiyədəki bir çox abidə ilə oxşarlıq təşkil edir. Məhz Memar Əcəmi məktəbindən öyrənən bir sıra türk memarları, xüsusilə də İstanbulda memarlıq ənənələrini inkişaf etdirdilər.

Naxçıvandakı muzeylər, abidələr çox gözəldir. Görünür ki, buradakı tarixi abidələrə, mədəniyyət nümunələrinə diqqət göstərilir, onlar yenidən qurulub bərpa edilir. Onu da gördüm ki, bu yaradılanlara insanlar da sahib çıxır.

Naxçıvanın digər bir möcüzəsi Duzdağa getdik. İçəriyə daxil olduğum andan məni cəzb edən bu yer bir çox xəstəliklərin şəfa mənbəyidir. Doğmalarımla birlikdə yenidən bura gələcəyəm. Həmçinin geri döndüyümüzdə qəzetimizdə Naxçıvan haqqında geniş bir məqalə yazacaq, hər kəsi bu diyarı bir daha yaxından tanımağa səsləyəcəyəm.

***Günay Arda – Femida.az xəbər saytının redaktoru, Azərbaycan Televiziyasının kinoproqramlar və dublyaj redaksiyasının redaktoru:*** – Naxçıvan ənənələrinə sadiq qalan, əsl Azərbaycançılığın nəfəsinin duyulduğu bir diyardır. Tariximizi, ənənələrimizi belə qoruyub saxlamaq hər yerdə mümkün deyil. Naxçıvanın yerləşdiyi strateji nöqtəni nəzərə alanda təhlükəsizliyi qorumaq hər kəsin bacaracağı iş deyil. Mən deyərdim, Naxçıvan dahi Nizami Gəncəvinin əsərlərində tanış olduğumuz utopik cəmiyyətin müasir və real inikasıdır. Naxçıvanda bir çox yeri gəzmişik. Cəmşid Naxçıvanski Muzeyində olduq. Elə zənn etdim ki, Naxçıvanskinin özü oradadır. Onun ruhunu o qədər qoruyub saxlaya biliblər ki, muzey təsiri bağışlamır, sanki Naxçıvanski zamanındasan, onunla üzbəüz dayanmısan.



Naxçıvana bir neçə dəfə gəlmişəm. Ancaq bu gəzintim xüsusilə seçildi. Bu yerlərdə hər sahədə infrastruktur o qədər inkişaf edib ki, nümunə model kimi başqa bölgələrimizə də onu tətbiq etmək lazımdır. Əshabi-Kəhfə, Batabata getdik, Arpaçayı gördüm, şəhərin mərkəzini gəzdik, indi isə məğlubedilməz Əlincədəyik.

Naxçıvan turizm üçün geniş imkanlara sahibdir. Turizm perspektivini nəzərə alsaq, mən deyərdim, Naxçıvan Azərbaycanın gözüdür. Qədim tarixi ilə dünyada tanınan Gəmiqaya abidəsi, Nuh türbəsi, Əshabi-Kəhf və digər bu kimi mədəni nümunələr bir dəyərdir. Naxçıvanda bu dəyərlər qorunub saxlanılır, yaşadılır. Biz jurnalistlər də bütün bunları layiqincə təbliğ etməli, Naxçıvanı, sözün əsl mənasında, mədəniyyətin, qədim tarixin beşiyi olan bu məkanı bütün dünyaya nümunə kimi göstərməliyik. Bir gün Naxçıvan haqqında sənədli film çəkəsi olsam, bu filmi Hüseyn Cavidin türbəsindən başlayıb Əlincədə bitirərdim.

**Güntac ŞAHMƏMMƏDLİ**

Journalistin qeydləri

# Biz necə ailə təsərrüfatı sahibi ola bildik?

*Əslində, bu sualın cavabı o qədər də çətin deyil. Bir az keçmişə nəzər saldıqda, müqayisələr aparıb hadisələrin xronologiyasını dəqiq izlədikdə məsələnin mahiyyəti tam aydın olur.*

Naxçıvanda bu işin təməli hələ dövlət müstəqilliyimizi təzəcə qazandığımız illərdə, daha dəqiq desək, ötən əsrin 90-cı illərinin əvvəllərində ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulmuşdu. Dahi şəxsiyyətin rəhbərliyi ilə Ali Məclisin sessiyasında “Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozlar haqqında” və “Rentabelli işləyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsi barədə təkliflər haqqında” qərarların qəbul olunması özəl mülkiyyətə əsaslanan aqrar münasibətlərin formalaşmasında və bunun tərkib hissəsi kimi fərdi təsərrüfatçılıq ənənələrinin yaranmasında ilkin addım idi.



1996-cı ildən sonra muxtar respublikada torpaq islahatlarının həyata keçirilməsi, aqrar sahəyə böyük diqqət və qayğı isə fərdi təsərrüfatların formalaşmasında və inkişafında yeni bir dövrün başlanğıcı oldu.

Bunun ardınca torpağın əkilib-becərilməsində mövcud olan çətinliklər – texnika, gübrə və su çatışmazlığı aradan qaldırıldı. Yeni su anbarları tikildi, nasos stansiyaları və subartezian quyuları istifadəyə verildi, qapalı suvarma şəbəkələri quruldu, kanallar çəkildi.

Rayonlarda kolxozlarla birlikdə “ömrünü” başa vuran 2-3 salxaq-sökük traktor və kombaynların yerini hər ailənin sahib olduğu müasir kənd təsərrüfatı texnikaları aldı, aqrolizinq xidməti yaradıldı, muxtar respublikaya minlərlə müxtəlif təyinatlı kənd təsərrüfatı texnikaları gətirildi, əl əməyindən istifadəyə son qoyuldu.

Torpaq mülkiyyətçilərinə güzəştlərin tətbiq olunması, subsidiyaların və gübrələrin verilməsi məhsul istehsalına marağı artırdı. Bol məhsul istehsal olunduqca isə digər həllivacib məsələlərə sıra gəldi. Həmin məhsullar dövlət tərəfindən alındı, yaradılan soyuducu anbarlara tədarük edildi, daxili bazar qorundu, yerli məhsulların satışına üstünlük verildi, bununla da iş bitmədi. Kənd təsərrüfatı məhsullarının yarmarkaları təşkil olundu, kəndliyə deyildi ki, səndən nə vergi alan var, nə də rüsum tələb edən, məhsulunu bazarda rahat sata bilərsən. İstixana kompleksləri də fəaliyyətə başladı, əhali ilboyu keyfiyyətli bostan-tərəvəz məhsulları ilə təmin edildi. Bir də baxıb gördük ki, dünənə qədər xaricdən daşıdığımız keyfiyyətsiz bostan-tərəvəz məhsullarının yerini keyfiyyəti, dad-tamı ilə seçilən Naxçıvan məhsulları alıb.

Əkinçiliklə yanaşı, heyvandarlıq da, arıçılıq da inkişaf etdirildi. Mal-qaranın cins tərkibi yaxşılaşdırıldı, hər kənddə baytarlıq xidməti təşkil olundu, süni mayalanmaya keçildi, arı ailələrinin sayı artırıldı, dövlət proqramı qəbul edildi, yaylaqlar heyvandarların və arıçıların ixtiyarına verildi. Artıq kiminsə öz təsərrüfatını genişləndirmək üçün hansısa bəhanə gətirməyinə əsas qalmadı.

Meyvəçilikdə də yeni yanaşma ortaya qoyuldu. Dövlət proqramları qəbul olundu, insanlarda iməciliklərlə əsası qoyulan ağac əkmək mədəniyyəti formalaşdı. Yazın gözü açılmamış çöldə-bayırda əlində balta ağacları çiçəyə “həsrət qoyan” odunyığanlar çönüb oldular bağban, min hektarlarla bağ saldılar. Naxçıvanın cəvizi, alması, tutu, əriyi, armudu, badamı, heyvası, şaftalısı, üzümü bazarda öz yerini tutdu, tonlarla meyvə hər il daşınıb aparıldı ölkəmizin digər bölgələrinə və xarici bazarlara.

Kəndlərimizdə geniş quruculuq işlərinə başlandı. İlk növbədə, kəndə yol çəkildi, evlərə daimi elektrik, qaz verildi, yeni sosial obyektlər tikildi, internet, yeni texnologiyalar hər bir kənd adamı üçün əlçatan oldu. Müasir məktəblər, kənd və xidmət mərkəzləri fəaliyyətə başladı. Bununla da kəndli öz evinin içində şəhər rahatlığına qovuşdu. Ta o fikirləşmədi ki, kəndimi qoyub harasa getməliyəm, əksinə, torpağını əkdi, təsərrüfatını genişləndirdi, gün-güzəran qurdu.

Dövlətimizin əsas məqsədi insan sağlamlığıdır və buna nail olmaq həm də ekoloji sağlam qida məhsullarının istehsalından keçir. İstər bitkiçilik, istərsə də ət və süd məhsullarının yüksək keyfiyyət göstəricilərinə malik olması, bu məqsədlə aparılan profilaktik tədbirlər öz bəhrəsini verdi. Naxçıvan məhsulları brendə çevrilib. Əl-əl axtarılır.

Ailə təsərrüfatları, əsasən, aqrar sahə üzrə formalaşırlar. Aqrar sahənin inkişafında diqqət yetirilməli amillərdən biri isə elmi yanaşmanın ortaya qoyulmasıdır. “Araz” Elm-İstehsalat Birliyinin yardımçı təsərrüfatlarında məhsuldar toxum sortlarının yetişdirilməsi, xüsusilə toxumçuluq təsərrüfatlarının fəaliyyətə başlaması, torpaq mülkiyyətçiləri ilə maarifləndirici söhbətlərin aparılması imkan verdi ki, əkinçilikdə ən səmərəli metodlardan istifadə olunaraq bol və keyfiyyətli məhsul istehsal edilsin.

Nəticə uğurludur. Qürurvericidir. Artıq muxtar respublikada fərdi təsərrüfatlar inkişaf edərək ailə büdcəsinin əsas gəlir mənbəyinə çevrilib. Kənd yerlərində yaşayan ailələr öz məşğulluqlarını, dolanışıqlarını təsərrüfatla təmin edirlər. İstehsal olunan məhsulların çeşidi artıb. Təsərrüfatlar təkcə xammal istehsal etməklə deyil, həm də onun emalına da maraq göstərməyə başlayıb, ailə biznesi formalaşıb. Məhsulların qablaşdırılması, emalı, bazara çıxarılması istiqamətində səmərəli marketinq sistemi qurulub. Fərdi təsərrüfatlar genişlənərək iqtisadiyyatın, daha dəqiq desək, özəl sektorun ən təkmil forması olan ixtisaslaşmış ailə təsərrüfatlarına çevrilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 22 noyabr tarixli Sərəncamı ilə “Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı Tədbirlər Planı”nın təsdiq edilməsi, 2019-cu ilin “Ailə təsərrüfatları ili” elan olunması muxtar respublikada bu məsələyə kompleks yanaşma ortaya qoyub. Ailə təsərrüfatlarının biznes planlarının tərtib olunması, onlara güzəştli kreditlərin və müxtəlif təyinatlı kənd təsərrüfatı texnikalarının verilməsi, “Ailə təsərrüfatı məhsulları” festivallarının keçirilməsi istehsal olunan məhsulun həcminin və çeşidinin artmasına, tanıdılmasına və geniş alıcı kütləsinə çatdırılmasına, ən mühümü isə ixrac imkanlarının yaranmasına səbəb olub. Noyabrın 2-3-də keçirilən üçüncü “Ailə təsərrüfatı məhsulları” festivalına muxtar respublikanın 408 ailə təsərrüfatı tərəfindən 556 növdə məhsulun çıxarılması bir daha təsdiq etdi ki, təşəbbüs real işə çevrilib.

Yəni sözümün canı ondadır ki, bu gün ağızdolusu danışdığımız ailə təsərrüfatları heç də göydən düşməyib, birdən-birə yaranmayıb. Naxçıvanda sabitliyə, inkişafa, firavanlığa, təhlükəsiz yaşayışa, necə ki gecəli-gündüzlü fəaliyyət hesabına nail olunubsa, hər gün dükan-bazardan, festivallardan məhsullarını evlərimizə daşıdığımız, bir çoxumuzun elə sahib olduğumuz ailə təsərrüfatlarına da illər boyu çəkilən böyük zəhmət, yaradılan şərait və göstərilən diqqət nəticəsində nail olunub.

Naxçıvanda kəndli bu günün ailə təsərrüfatı sahibi, sabahın isə sahibkarıdır.

**Ülvi HÜSEYNLİ**
**jurnalist**

## Naxçıvan Muxtar Respublikası üzrə 4 noyabr 2019-cu il tarixə taxıl səpininin gedişinə dair məlumat

hektarla

| | Şəhər və rayonlar | Səpilən sahə | o cümlədən | |
|---|---|---|---|---|
| | | | buğda | arpa |
| 1. | Şərur rayonu | 1449,0 | 1367,0 | 82,0 |
| 2. | Babək rayonu | 5958,0 | 4091,0 | 1867,0 |
| 3. | Ordubad rayonu | 553,0 | 240,0 | 313,0 |
| 4. | Culfa rayonu | 2902,0 | 2481,0 | 421,0 |
| 5. | Kəngərli rayonu | 3785,0 | 2475,0 | 1310,0 |
| 6. | Şahbuz rayonu | 570,0 | 570,0 | - |
| 7. | Sədərək rayonu | 1029,0 | 750,0 | 279,0 |
| 8. | Naxçıvan şəhəri | 424,0 | 368,0 | 56,0 |
| | **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | **16670,0** | **12342,0** | **4328,0** |

## “Ailə təsərrüfatları ili”nin maraqla gözlənilən festivalından təəssüratlar...

Ötən şənbə havanın buludlu, yağışlı olmasına baxmayaraq, səhərin erkən saatlarından Naxçıvanqalaya aparan bütün yollarda insan izdihamı müşahidə olunurdu. Adıçəkilən ünvana bir-iki kilometr qala qəlboxşayan gözəl xalq mahnılarının sədaları insanı, sanki ovsunlayır, “dayanma, bu ünvana tələs”, – deyirdi.

Festivalda bölgələr üçün ayrılmış, bir-birindən özünəməxsusluğu ilə seçilən pavilyonlar sırasında Şahbuz rayonundan gəlmiş zəhmətkeşlərin yaratdığı gözəlliyə doğru addımlayırıq. Piştaxtalarda xüsusi zövqlə qablaşdırılan növbənöv məhsulları görmək olur. Pavilyonu maraqlı edən məqamlardan biri də “Şahbuzun dadlı məhsulları” adı altında xanımların xüsusi zövqlə qutab, kətə, şəkərbura və digər şirniyyat növlərini hazırlamaq qaydalarını əyani şəkildə nümayiş etdirmələri idi. Məhsul bayramının iştirakçısı, Şahbuz rayon Qızıl Qışlaq kənd sakini Məhəmməd Məmmədov fikirlərini bizimlə bölüşür:

– Son illərdə doğma Naxçıvanımızda keçirilən belə festivallar biz təsərrüfatçılar üçün əsl toy-bayrama çevrilib. Mən özüm bu tədbirlər sayəsində böyük alıcı kütləsi qazanmışam. Bu-





dəfəki festivalda isə qısa zaman ərzində çıxardığım 70 adda məhsulun artıq xeyli hissəsini sata bildiyim üçün çox sevincliyəm. Var olsun dövlətimiz ki biz təsərrüfat adamlarını belə bayramlarla sevindirir.

Müşahidələrimiz zamanı geniş alıcı kütləsinin toplaşdığı Şərur rayon pavilyonu da diqqətimizi çəkir. Xüsusi zövqlə bəzənmiş piştaxtalardan birində məhsul seçimi edən iki nəfərə yaxınlaşıb həmsöhbət oluruq. Onlardan Naxçıvan şəhər sakini Sabir Xəlilov deyir ki, hər il ailəliklə festivalın keçiriləcəyi günü səbirsizliklə gözləyirlər. Çünki burada çeşid bolluğu ilə yanaşı, qiymət münasibliyi də olduğundan ailə büdcəmizə qənaət edə bilirik. Gördüyünüz bu pavilyondan süd məhsulları aldım. Həm öz ailəmiz, həm də Bakıda yaşayan qohumlarımız üçün qovurma da götürəcəyəm.

Festivalda sərhəd bölgəmiz Sədərək rayonundan gətirilən məhsullar da alıcı zövqünü oxşayır. Rayon sakini, ailə təsərrüfatçısı Tərlan Akaslan ömrünün 20 ilini təsərrüfat işlərinə həsr edib. Deyir ki, bu gün burada haraya baxsan, alın təri hesabına yaradılan ecazkar gözəlliyi görə bilərsən. Mən ilk dəfədir, bu festivalda iştirak edirəm və dövlətimizin yaratdığı imkanlardan çox razıyam.

Müşahidələrimiz zamanı festivala xarici ölkələrin vətəndaşlarının da böyük maraq göstərdiklərinin şahidi oluruq. Nigeriya vətəndaşı Eromosele Esezobor burada təhsil aldığını və Naxçıvanı çox sevdiyini bildirir. Onun dediklərindən: – Şəhərin qədim ənənələrinin yüksək səviyyədə qorunub saxlanılması fərəhli haldır. Festivalda nümayiş olunan məhsullar görünür ki, çox təbiidir və təsərrüfatçıların zəhmətinin bəhrəsidir. Mən belə festivalların keçirilməsini alqışlayıram, çünki bu vasitə ilə biz xarici vətəndaşlar Naxçıvanı daha yaxından tanıyır, onun mədəniyyətini, tarixini, ənənələrini öyrənirik. Xüsusi qablaşdırılmış məhsulların qiyməti də sərfəlidir. Festival hər cəhətdən mənim üçün yaddaqalan oldu. Mən burada gördüklərimi öz dostlarımla da bölüşəcək, onları da Naxçıvana gəlməyə səsləyəcəyəm.

Malayziya vətəndaşı, “Naxçıvan” Universitetinin tələbəsi Mohammad İmranın da fikirləri maraqlıdır. Deyir ki, naxçıvanlılarda olan əzmkarlıq və nikbinlik, adət-ənənələrə bağlılıq, milli dəyərlərə ehtiram çox yüksək səviyyədədir. Şən əhval-ruhiyyə ilə keçirilən bu festivalda nümayiş edilən adət-ənənələr, bir-birindən ləziz təamlar bu diyarın nə qədər zəngin milli dəyərlərə və süfrə mədəniyyətinə malik olduğunu göstərir.

Yaponya vətəndaşı Li Çin ailəsi ilə birlikdə qədim yurdumuza səyahət edib. O, bir neçə gündür ki, burada olduğunu deyir və bildirir ki, yurdunuz çox gözəldir. Uca, əlçatmaz dağların əhatəsində yaşayan bu cür səmimi insanları tanımaq çox gözəldir. Bugünkü festival isə bir sözlə, möhtəşəmdi. Hansı pavilyona yaxınlaşdımsa səmimiyyət, qonaqpərvərlik gördüm. Hər bir sakin – satıcı və ya alıcı, fərq etmir, məni dadlı məhsullara qonaq olmağa dəvət edir.

Festivalda Banqladeş vətəndaşı Su Jonla da həmsöhbət olduq. O, fotoqraf olduğunu bildirir və deyir ki, mən bir çox ölkələrdə olmuşam. Sizə əminliklə deyə bilərəm ki, çox az yerdə qədimdən bu günə qalan abidələr əvvəlki görkəminə qaytarılır və qorunub muzeyə çevrilir. O qədər gözəl, səliqəli şəhəriniz var ki, insan burada gördüklərini fotoyaddaşa köçürdükcə zövq alır. Hara üz tutursan, səni mədəni qarşılayıb, qonaqpərvərliklə yola salırlar. Bu gün burada səmimi insanların əhatəsində festivalın iştirakçısı oldum, daha gözəl fotolar çəkdim.

Əsl bayram əhval-ruhiyyəsi ilə iki gün davam edən festivalda ailə təsərrüfatçıları arasında təşkil edilən “Aktiv ailə təsərrüfatı” müsabiqəsinin nəticələrinə görə I yerə Sədərək rayonundan Mehparə Hüseynova, Kəngərlidən Mətləb Dünyamalıyev, Şərur rayonundan Fərqanə Muxtarova, Babək rayonundan Cəmşid Həsənov, Şahbuzdan Sürəyya Quliyeva, II yerə Naxçıvan şəhərindən Şəfəq Ağayeva, Culfa rayonundan Fatma Əliyeva, III yerə Ordubaddan Leyla Qasımova, Şərurdan Cəfər Seyidov layiq görülüblər.

Qaliblərə diplomlar və hədiyyələr təqdim edilib.

**Ramiyyə ƏKBƏROVA**
**Nail ƏSGƏROV**
**Güntac ŞAHMƏMMƏDLİ**
**Pərviz HACILI**

### İtmişdir

Qurbanov Həsən Əli oğlunun adına olan Naxçıvan şəhəri, 54-cü məhəllə 5/5A ünvanında yerləşən torpaq sahəsinin A-016853 inventar nömrəli plan-ölçüsü və MH-0054832 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, 6-cı məhəllə, ev 37-də yaşayan Əliyeva Nəzakət Yusif qızının adına olan evin 9228 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Mətanət Məmmədova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 760